Loğman Rəşidzadə

# "SÜQUT"UN SÜKUTU

## I yazı

***Görkəmli yazıçı Hüseynbala Mirələmovun yaradıcılığı zəngin və çoxşaxəlidir. Onun qələmindən çıxan rəngarəng həyat lövhələri bizi bu günümüzün yol yoldaşına çevirir, mənəvi-psixoloji durumumuzu ələk-vələk edir, yaddaşımızı oyadıb gizli mətləblərdən, həzz aldığımız, sarsıldığımız, riqqətə gəldiyimiz hadisələrin şuxluğundan, parıltısından, mübhəm və qaranlıq tərəflərindən söz açır, öz düşüncələrimizi özümüzə yol yoldaşı edir, insanın özünün özünə tanıtdırılmasına bədii güzgü tutur. Müasirlərimizin həyatı, Qarabağ döyüşləri, ictimai-siyasi hadisələr onun qələmində avtonom hüquqlu xüsusi status qazanır. Yazıçı tarixi hadisələrə də xüsusi yanaşma sərgiləyir, uzaq keçmişin yaddaş saxlancında qorunan hadisə və olayları, insan talelərini bədii dilin ecazkar qatlarında oxucuya çatdırır. Onun bu yaxınlarda çapdan çıxmış, Azərbaycan tarixinin keşməkeşli dövrü olan Orta əsrlərdə baş verən hadisələri əks etdirən üç roman-trilogiyası - "Süqut", "Bənövşəyi əncir", "Çaldıran yolu" adlı əsərləri dediyimizə bir daha sübutdur. Dövrün hadisələrinə ciddi diqqət, baş verənləri ayıq sərf-nəzər, insan talelərinə fərdi münasibət, sosial-psixoloji dönümlərə, mənəviyyat məsələlərinə həssas yazıçı yanaşması bu əsərlərin üstün məziyyətlərini üzə çıxarır.***

***Yazıçı üçün hər əsər növbəti bir mərhələdir, keçilmiş yolun təzə başlanğıcıdır. Yazıçı üçün birdəfəlik uğur hələ heç nəyi həll etmir. Lakin uğur bir neçə dəfə təkrarlananda, özü də hər dəfə başqa-başqa planda, janr, sənətkarlıq fərqliliklərində baş verəndə bu, yazıçının xüsusi istedadından, fitri zəkasından, həssas qəlb, ürək çırpıntılarından soraq verir. Bu, həmin yazıçının intuisiyasını, xüsusi fitri instinktini təsdiq edir. Üç roman-trilogiya da tarixə həssas münasibət, rəngarəng insan talelərinə şüurlu yanaşma, baş verən hadisələrdə ümumiləşdirmə bacarığı, ayıq yazıçı fəhmi H.Mirələmov qələminin heyrətamiz uğurlarıdır.***

Tarix ayrı-ayrı xalqların, qövmlərin, tayfa və qəbilələrin, ən nəhayət, insanların tale yazısıdır. Tarix ilahi savaşın başlanğıcı, insan əməllərinin gerçəkləşmə anıdır. Tarix hədələyici müharibələr, qanlı döyüşlər, barışmaz mübahisələrin yol yoldaşıdır. Ən nəhayət, tarix tərcümeyi-haldır, insanlığın, bəşəriyyətin, dünyanın avtobioqrafiyasıdır. Hegel deyirdi: "Tarix Allahın yer üzərindən keçdiyi təmtəraqlı zəfər marşıdır". Bu, tarixin şərtiliyinə, həm də bir işarədir. Yer üzərindəki olaylar göydə, səmada Allahın əmriylə hasilə yetir və Allahın iradəsilə baş verir. İnsan bu yöndə sadəcə icraçıdır. Bəs tarixi kimlər yaradır? Allahın iradəsilə ayrı-ayrı insanlar, toplumlar, bir sözlə, xalq. Ayrı-ayrı tarixçilər isə onu qələmə alırlar. Burda da təhriflər, yanlışlıqlar, tarixi hadisələrə şəxsi ambisiyalarla dolu müdaxilələr yetərincədir. Yenə ən böyük missiya ədəbiyyatın üzərinə düşür. Tarix ədəbi əsərlərdə daha canlı, daha dolğun və ibrətamiz yaşanır. Tarixi hadisələrə ədəbi münasibət, yazıçı müdaxiləsi daha yetkili, aydın və durudur. Yazıçı tarixə kobud polemikalar qatmır, onun əsrləri işıqlandıran qatlarını canlı hadisələr fonunda heyrətamiz coşğunluqla qabarda bilir. Hüseynbala Mirələmov da tariximizin keşməkeşli, mürəkkəb olduğu qədər də maraq doğuran bu dövrünə yazıçı üreyinin işığında, qəlbin və mənəviyyatın bəsirət gözüylə yanaşıb, nəticədə dövrün nəbziylə döyünən bədii vüsəti üç möhtəşəm roman ərsəyə gətirmişdir.

Bizim tariximizi uzun müddət özgələr yazmışdır. Odur ki, tarixi faktlar təhrif olunmuş, hadisələr pozuq proyeksiyada verilmiş, qəhrəmanlarımız və bu tarixi yaşamış xalqımız haqqında yanlış fikirlər cücərib boy atmışdır. Yaxşı haldır ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatında tarixə meyl güclənmiş, tarixi qaynaqların həqiqətə yaxın əks olunmasının müvafiq mövzusu və forması tapılmışdır. Yazılan tarixi romanlarda, hər halda, buna ciddi cəhdlər hiss olunur.

"Süqut" romanının maraqlı və cəlbedici bədii strukturu, eyni zamanda təhkiyə özəlliyi vardır. Təhkiyə şirin, dadlı və heyrətamizdir. Obrazlı danışıq, sətiraltı düşüncə tərzi həm müəllif remarkalarında, həm də dialoqlarda, obrazların daxili düşüncə tərzində, iç monoloqlarında qabarıqdır. Roman Amid bəyliyində, Bayandur nəslinin yetkililəri arasında söhbətlə başlayır. Bu yetkililər kimdir? Bəyliyin görən gözü, eşidən qulağı, düşünən beyni, bir sözlə, bel sütunu Sara Xatun oğlu Həsənlə (Uzun Həsən) bir problemi çözmək üçün diz-dizə oturmuşlar. Problem nə qədər ağrılı bir olay ətrafındadır. Söhbət nə qədər xoşməramlı məcraya yönəlsə də, yenə öz məzmununda sərt məntiqini yaşadır. Çünki baş verənlər ciddidən ciddi idi. Cahangir Murzə qardaşı Uzun Həsənə (ən çoxu da anası müdriklər müdriki Sara Xatuna) asi çıxmış, özünə sadiq qoşun bölüyü ilə Diyarbəkirə, bu vilayətin hakimi Ağur xanın yanına getmişdi. Onu da yoldan Sələbiyyə xan çıxarmışdı. Sara Xatun oğlu Həsəni digər oğlu Cahangirin üzərinə yeriməkdən çəkindirmək, qardaş qanı axıdılmasının qarşısının alınması üçün maraqlı bir vasitə seçir. Həsənə babası Qara Yuluq Osmanın dayısı Qazi Bürhanəddinlə münasibətlərini nəql edir. Və bu yolla da Həsəni sakitləşdirə bilən maraqlı rəvayətləri bir-birinə calayır. Uzun Həsən anasına qulaq asa-asa düşünür, anasının böyüklüyü, yenilməzliyi barədə xəyalən öz-özü ilə söhbət edir. Yazıçı bu məqamı çox gözəl incələyir: "Əgər anasını narazı salmalı olsa, özünün ən qüdrətli vəzirindən məhrum olardı. İndiki halda Sara Xatun bəyliyin düşüncəsi, ağlı idi. Hələ üstəlik Sara Xatunun çox nəhəng, inanılmış xəbər şəbəkəsi vardı ki, məmləkətdə o, haradan, hansı küləyin əsdiyini, hansı yarpağın titrədiyini həmin andaca bilirdi. Demək Sara Xatun həm də məmləkətin görən gözü idi. Dağların o üzünü də, yollarda baş verənləri də hansı karvanın haradan, nə vaxt keçdiyini də, hələ üstəlik qonşu əyalətlərin hakimlərinin nələri məşvərət etdiyini, bəlkə yataq otaqlarında istəkli xanımlarına da nəyisə dediyini asanlıqla öyrənə bilən Sara Xatunun bəlkə də on minlik qoşun qədər gücü vardı".

Sara Xatunun bütün ictimai-mənəvi-diplomatik sifətlərini çox əlvan boyalarla incələyən yazıçı, onun bəylikdəki yerini, hakimiyyət aristokratiyasındakı mövqeyini bütün parlaqlığı ilə çatdıra bilir. Həm də bunu öz oğlunun düşüncə tərzi kimi verməklə Sara Xatunun hakimiyyət ierarxiyasının başında durduğunu nəzərə çarpdırır.

Sara Xatun oğlanlarının qarşıdurmasını, təbii ki, istəmir. Onun daxilində iki hiss qarşı-qarşıyadır: analıq duyğusu və hakimiyyət şövqü. O, hakimiyyətin bölünməyini, parçalanmasını istəmir. Bu hisslə də Həsənin tərəfindədir. Cahangir Mirzənin ərköyünlüyü, hakimiyyət hərisliyi onu qəzəbləndirir. Amma o, analıq duyğusu ilə Cahangir Mirzəni qorumaq üçün vaxt udur, Həsəni qoşun çəkib Cahangirin üstünə yeriməyini öz rəvayətə bənzər söhbətləri ilə ləngidir. Romanın fabulası da bu söhbətlər üzərində qurulur. Əsas xətt də Qazi Bürhanəddin hakimiyyəti dövrüdür. Uzun Həsənlə Cahangir Mirzənin mübahisələri, qarşıdurmaları sonrakı mövzudur. İndilikdə roman Qazi Bürhanəddinin romanıdır.

Qazi Bürhanəddin Azərbaycan tarixi və ədəbiyyatı üçün çox parlaq simalardan, görkəmli şəxsiyyətlərdən biridir. Son dərəcə ciddi, zabitəli, səliqəli və ədalətli bir şah kimi tariximizə damğa vurmuş bu böyük şəxsiyyət, ədəbiyyat səmasının da parlaq ulduzlarından biridir. İncə zövqlü qəzəlləri, qəsidələri ilə ədəbiyyat tariximizdə özünəməxsus yer tutmuş Qazi Bürhanəddin özlüyündə şair kimi yaradıcı güc, şah kimi, sərkərdə kimi idarəedici, yönəldici qüvvət olmuşdur. Yazıçının təqdimatında bu tanıtım daha dəqiq səslənir: "Qazinin özü hakimiyyət sahibi olmazdan əvvəl şair idi. Özü də elə-belə, sıradan şair deyildi. O, Azərbaycan türkcəsində yaradılmış ilk "Divan"ın müəllifi idi".

Burada zəruri ricət çıxmağa ehtiyac hiss olunur. Qazi Bürhanəddin kimdir, hökmdarlıq mərtəbəsinə necə yiyələnmişdir. Onun həyatı, ömrü, inkişafı, tərəqqisi nədən keçmişdir? Qazi Bürhanəddin XIV əsrin 44-cü ilində Qeysəriyyədə dünyaya göz açmışdı. Salurlardan idi. Atası Şəmsəddin Məhəmməd də dini - islami qayda-qanunların yaxşı bilirdi. Qazi taleyin hökmü ilə Şərqin Bağdad, Qahirə, Bəlx, Hələb kimi elm mərkəzlərində təhsil almış, kamilləşmişdir. Nəhayət, iyirmi bir yaşında Vətənə dönür. Artan hökmdarı Məhəmmədin qızı ilə evlənir. Tezliklə elmli - bilikli bir şəxs kimi saray ərkamı arasında böyük hörmət qazanır. Şəriət işlərinə rəhbərlik - qazilik ona tapşırılır. Qazi Bürhanəddin təxəllüsünü götürür və bu adla tanınmağa başlayır. Elə o dövrdən də ağlı ilə yanaşı, ruhunun pərvazı olan gözəl qəzəllər yaradırdı. Bu da ona olmazın şöhrət gətirirdi.

Qayınatası Məhəmmədin ölümündən sonra taxta qaynı Əli çıxır. Əli gənc idi, dövlət işlərində səriştəsi yox idi. Odur ki, bütün bunları nəzərə alıb Qazi ona vəzirlik etməyə razılıq verir. İş elə gətirir ki, Əli iki ildən sonra qəfil dünyasını dəyişir. Onun hələ bələkdə olan körpə uşağının atabəyi kimi Qazi Bürhanəddin hakimiyyəti idarə etməyə başlayır. Beləliklə, Qazi Bürhanəddin hakimiyyətə sülalə yolu ilə deyil, taleyin hökmüylə yiyələnir.

Yazıçı tarixi hadisələri quru, sxematik təsvir etmir, rəqəmlərin diliylə danışmır. Tarix daha çox insanların həyat tərzində, yaşantısında, psixologiyasında, bir-birinə münasibətində üzə çıxır. Yuxarıda qeyd etdik ki, roman Sara Xatunun söhbətləri əsasında qurulub. Sara Xatunun bu söhbətləri də ibrətamiz məcrada bərqərar olur, iki qardaş arasında sülhə, əmin-amanlığa yönəlir. Məhz Qazi Bürhanəddinlə Qara Yuluq Osman arasındakı əndişələr, son anda Qaranın şaha qarşı çıxması, ona üsyan etməsi də bu məqsədə xidmət edir. Sara Xatun danışdıqca Həsən xəyallanır, haldan-hala, təbdəntəbə düşür, gah qəzəblənir, gah da quzu kimi sakitləşib anasının bu söhbətlərinin məbədim gözləyir. Düşünür, öz-özünə götür-qoy edir: "Ağlına gəlirdi ki, bayaq əlində sıxdığı qılıncla Cahangir Mirzənin boynunu vursun. O biri tərəfdən anasının danışdığı əhvalatların təsiri altında düşünürdü ki, insan olan kəs hakimiyyət naminə, vardövlət naminə öz qardaşına necə qəsd edə bilər?". Sara Xatun isə danışırdı. Hakimiyyət uğrunda mübarizələrin gətirdiyi bəlalar haqqında danışırdı. Qohumu qohuma, doğmanı doğmaya qarşı qoyan hakimiyyət ehtirasının amansızlığından söz açırdı...

Qazi Bürhanəddin, heç şübhəsiz, məmləkəti ədalətlə idarə edir, adil şah kimi ad çıxarmışdı. Amma bütün hökmdarlar kimi şəkkaklıq, sabaha inamsızlıq, hakimiyyətinin gələcəyi üçün qorxu və nigarançılıq heç də ona yad deyildi. O, sabah haqda, hakimiyyətinin gələcəyi barədə daha çox düşünür, əndişələnir, narahatlıq yaşayır, oğlu Elməddin Əli Çələbinin gələcəkdə məmləkəti rahat və təhlükəsiz idarə etməsi üçün indidən planlar qurur, onun yolunu təmizləmək naminə qanla izlənilsə belə, yollar fikirləşirdi.

"Bütün ömrü boyu Qazi ikili bir həyat yaşamışdır. Bir tərəfdən hakimiyyətin, məmləkətin sahibi olaraq hökm verməyin şirinliyindən həzz almaq, başqa tərəfdən elmin və şeiriyyətin gətirdiyi mənəvi zənginlikdən zövq duymaq...". Beləcə ikili dünya yaşayan Qazi Bürhanəddinin şahlığı, hökmdarlığı, hökmfərmanlığı şeir yazan incə hisslərinə qalib gəlir, onu qana-qadaya sürükləyir, qəlbində intuitiv olaraq bəslədiyi ədalət hisslərini də korşaldır.

Əsas konflikt bacısı oğlu Əhmədin qızı Gülçöhrə ilə məhəbbət, sevgi macərası olur. Qazi oğlu Elməddin Əli Çələbi ilə bir vaxtlar dünyaya gəlmiş Əhmədi də vaxtilə öz övladı kimi sevmiş, qayğısını çəkmiş, bir igid kimi böyüməsində az xidmətlər göstərməmişdi. Bəs indi bu nə əndişələrdir yaşayır, bu nə qəzəbdir, kindir qəlbində Əhmədə qarşı bəsləyir? Əhməd igid bir sərkərdədir, döyüşçüdür, mərddir, sözündə bütöv, yolunda baqi, dönməzdir. Qazi Bürhanəddini də təşvişə salan, qayğılandıran, son anda qorxudan məhz budur. Gələcəkdə Əhməd hakimiyyət iddiasına düşə bilər. Gülçöhrəylə izdivac bununçün yeni bir şərait, stimul yaradar. Axı özü də hakimiyyətə bu yolla gəlmişdi. Hələ, üstəlik Elməddin Əli Çələbi hakimiyyətə meylli deyildi. "Və təəssüf ki, Elməddin Əli Çələbinin hərbi işdə zəifliyi tez üzə çıxır, məşqlərdə təlimçi döyüşçülər onun zəifliyini görüb güzəştə gedir, çox çətinliyə salmırdılar. Bax, o vaxtdan Qazidə bacısı oğlu Əhmədə qarşı içində gizli bir həsəd hissi baş qaldırmışdı".

*(Davamı 6-cı səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

# "SÜQUT"UN SÜKUTU

Qazi Bürhanəddinlə Əhmədin münasibətləri o həddə gərginləşir ki, son anda Əhməd özünə sadiq ordu qüvvələri ilə çəkilib gedir. Bu da hakimiyyəti real təhdidlə üz-üzə qoyur. Qazi çıxılmaz duruma düşür. Əhmədlə açıq döyüşə girmək istəmir. Bu, onun ədalətinə, şərəfinə xələl gətirər, həm də orduda çaxnaşma salar. O, Əhmədin ordu içərisində nüfuzundan da yaxşı xəbərdardır. Bir yol qalır. Digər bacısı oğlu Qara Yuluq Osmanı Əhmədin dalınca göndərmək, onu dilə tutub gətirmək. Üzəvari də ona aman veriləcəyini söyləyir. Qara Yuluq Osman bu vədə şübhə ilə yanaşsa da, yenə də Əhmədin dalınca getmək məcburiyyətində qalır.

Bu səhnələrdə yazıçı çox incə üsullarla, obrazlı düşüncə tərzi ilə, personajların dialoqları, fəlsəfi-psixoloji söhbətləri əsasında situasiyanın gərginliyini, daxili dinamizmini məharətlə açıb göstərir. Bir tərəfdən Qazi Bürhanəddinin yaşadığı daxili təlaşlar, psixoloji təbəddülatlar, digər tərəfdən Əhmədlə Qara Yuluq Osmanın hadisələri bütün çılpaqlığı ilə şərh edən, hadisələrin mayasına gedən söhbətləri, ecazkar bədii təsvirlər, dərin yazıçı remarkaları, yazıçı müdaxilələri çox gözəl üslubi çalarlarda üzə çıxır. Qara Yuluq Osman Əhmədlə söhbətində: "Mən səninlə razıyam, Əhməd, amma unutma ki, Qazi Bürhanəddin özü də Vətən rəmzidir", - deyir. Cavab da mənalı fəlsəfi mahiyyət daşıyır: "Çox doğrudur, Qara, - Əhməd təsdiq eləmiş, sonra da demişdi: - Sən unutma ki, Vətən əbədi qalır, rəmzlər isə zaman-zaman dəyişir, pozulur, əhəmiyyətini itirir".

Əsərdə bir-birindən fərqli xarakterlərə malik, təkrarsız, bənzərsiz, hər biri özündə yetərincə mənəvi-psixoloji yük daşıyan obrazlar silsiləsi var. Yazıçının bu məqamda obraz yaratma ustalığı bütün çalarları ilə bərq vurur. Bu obrazlar son dərəcə canlı insanlardır - təzadları-ziddiyyətlərilə, sevgisi-nifrətilə, arzu-istəklərilə hər biri avtonom hüquqlu, ayrıca bir əsərin baş qəhrəmanı ola biləcək səviyyəsində qəhrəmanlardır. Qazi Bürhanəddin, Şeyx Məhyəddin, Qara Yuluq Osman, Əhməd, Gülçöhrə, Bəndalı kişi, Dürdanə, Sara Xatun, Uzun Həsən, Cahangir Mirzə və s. Və heç şübhəsiz əsərin baş qəhrəmanı Qazi Bürhanəddindir. Yazıçı obrazın xarakterini açıb ortaya qoymaq üçün, demək olar ki, onu zərrələrilə araşdırır. Bu şair-hökmdar əyaləti ədalətlə idarə edir, rəhmdardır, şair xəyalı hadisələrin ilhamı sayəsində büsbütün gerçəklənməyə gətirib çıxarır. Döyüşçü və hökmdar özünün qılıncı və dəbilqəsi, taxtı və tacı ilə tanındığı halda o, həm də qələmi, gözəl, lətif şeirləri ilə tanınır. Lakin son anda ədaləti unudur, hər şeyi hakimiyyət ehtiraslarına qurban verir. Sevgisində sədaqətli, hakimiyyətində ədalətli olan bu şair-şahı yazıçı hər bir halda himayə edir. O yazır: "Qazi dövlət qulluğuna götürdüyü adamların mənəvi keyfiyyətlərinə üstünlük verirdi. Çünki Qazi sevgi ilə ailə həyatı qurmuşdu. Başqa əyalətlərdəki hökmdarların, sultanların hərəmxanalar haqqında əhvalatlarına bir əfsanə, nağıl kimi baxırdı. Onun ağlı, düşüncəsi qətiyyən qəbul eləmirdi, eyni vaxtda başqa bir qadını necə sevmək olar?.. Qazi gözünün ucuyla da olsun bir özgə qadına tamah salmırdı...".

Saf məhəbbətdən söhbət düşmüşkən qeyd edək ki, "Süqut" romanının süjet xəttini, əsas fabulasını saf sevgi, özü də nakam sevgi təşkil edir. Əhmədlə Gülçöhrə xətti, Məhyəddinlə Dürdanə sevgi macərası, Ağbənizlə sevgilisi arasında baş verənlər, hətta Uzun Həsən anası Sara Xatunun söhbətini dinlədikcə qəlbinin dumanlı xatirələrində bir Nargilə silueti də canlanır... Bütün bu sevgi əhvalatları romanın ana xəttini təşkil edir, deyək ki, ona yeni təravət, ruh və gözəllik bəxş edir. Ağbəniz Şeyx Məhyəddinə Dürdanənin qəbri önündə dedikləri nakam məhəbbətin məntiqinə işıq salır, onun əbədiliyini, ölməzliyini vurğulayır: "Xeyr, o sənin ruhunu özü ilə aparmayıb, əslində, o, öz ruhunu da sənə verib, gedib. Sən indi daha güclüsən. İki ruh yaşayır sənin pak vücudunda...".

Bəs niyə nakam məhəbbət, yarımçıq eşq?.. Şəxsiyyətindən, sosial mövqeyindən asılı olmayaraq, bu insanların hər biri yarımçıq xoşbəxtliyi yaşamağa, son anda bu acı şərbəti içməyə məhkumdurlar.. Müəllif bu məqamda da dövrə, zəmanəyə eyham vurur, həyatın diqtəsinə diqqət çəkir. Qarışıq zaman, vəlvələli dövr hər kəsin taleyində öz izini qoyur, möhürünü vurur. Bu nakam sevgililərin hər biri zamanın, başqa sözlə, zəmanənin qurbanlarıdırlar.

Əhmədlə Gülçöhrənin saf sevgisi, son anda daşa dəyib çilik-çilik olan təmiz məhəbbəti yazıçı tərəfindən böyük şövqlə təsvir olunmuşdur. Bəs özü qeyri-adi aşiqanə şeirlər yazan, əsl sevginin nə olduğunu yaxşı bilən Qazinin bu saf məhəbbəti cəhənnəmə çevirməsinin səbəbi nədir? İntuitiv hakimiyyət hissi. Demək hakimlik şövqü saf məhəbbətdən də üstündür. Əhmədi gələcəkdə oğlunun hakimiyyəti üçün təhlükə görən Qazi onun ölümünə fərman verir və o öz sonunu da müəyyənləşdirir.

Hadisələrin inkişafını izləmək, təsvir edilən dövrün, məkanın ab-havasını çatdırmaq üçün yazıçı məqbul bədii vasitələrdən yerli-yerində istifadə etməyi çox ustalıqla reallaşdırır. Obrazların xarakterini, daxili aləmini açıb üzə çıxarmaq üçün obrazlı sözün bütün imkanlarını sınağa çəkir. Bənzətmələr, bədii ifadə vasitələri fəlsəfi məzmun daşıyır, insan talelərinin aşkarlanmasını fokslaşdırır. Bəzən bir kəlmə, bir cümlə insanın xarakterinin canlanmasına kömək edir: "Cahangir öz qınında boğulan qılınc kimi səssiz və müəmmalı idi...". Bu sözlər Cahangirin düşüncələri, tutduğu yol, fərqlilik istəkləri barədə çox şey deyir.

Roman çox ibrətamiz sonluqla bitir. Əhmədi Qara Yuluq Osmanın əliylə gətizdirib edam etdirən Qazi Bürhanəddin növbəti dəfə başqa bir bacısı oğlu Qara Yuluq Osmanın etirazı, üsyanı ilə üzləşir. Qara Yuluq Osman özünə sadiq altı yüz nəfərlik ordu ilə qiyam edir. O, Əhmədin onun əliylə gətirilib edam edilməsini heç cür şərəfinə, ləyaqətinə sığışdıra bilmir. Şeyx Məhyəddinin təklifi ilə Qazi döyüşdən əvvəl sülh təklif eləməyə razı olur. Lakin döyüşü Qazidən xəlvət məkrli niyyətini həyata keçirmək üçün baş əyan başlayır. Döyüş bir an çəkir. "Qara Yuluq Osman düz Qazi Bürhanəddinlə üzbəüz dayandı. Əlli dörd yaşlı Qazi əlini qılıncına atsa da onu sıyırmağa imkan tapmadı...

Qazi Bürhanəddinin yerə dığırlanmış başı bərəlmiş gözləri ilə hələ atdan yıxılmamış bədənini süzürdü".

Stop kadr. Burda hər şey donur, sükuta qərq olur. Şərqin qanlı faciələrindən biri də beləcə yekunlaşır. Bacıoğlu dayısını qətlə yetirir. Təmkinli bir məyusluq hamını bürüyür. Böyük zəka, iqtidar sahibinin başı torpaqdan boylanır. Bəlkə diqqət eləyən olsaydı Qazinin kəsilmiş başındakı dodaqlarından arxayın, yüngül, həzin bir qanlı təbəssüm oynadığını da hiss edərdi. Bəlkə o bu an şeir pıçıldayırdı, səssiz-səmirsiz:

Keçdi keçən var isə dövran budur,
Şimdi qopan canlara cövlan budur.
Kimdə ki, var isə gəlsin ortaya,
Gizləmək pəs nə üçün, meydan budur.

"...Sara Xatun gözləri dolmuş halda söhbətini bitirdi".

***2021***